BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# XIX ƏSRİN AXIRLARI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA ŞƏRAB, KONYAK VƏ SPİRT-ARAQ İSTEHSALI HAQQINDA

**X.T.VƏLİYEVA**
*AMEA-nın Tarix İnstitutu*

Yeyinti sənayesi XIX əsrin sonu – xüsusən XX əsrin əvvəllərində Şimali Azərbaycanda aparıcı sahələrdən biri idi. Neft sənayesini çıxmaq şərti ilə başqa istehsal sahələrindən illik məhsulun ümumi dəyərinə görə xeyli fərqlənirdi.Bu sahə Şimali Azərbaycanın, demək olar ki, bütün regionlarında intişar tapmışdı. Spirtli içkilər istehsalı haqqında sənaye tarixinə həsr olunmuş əsərlərə müəyyən yer verilməsinə (1) baxmayaraq, bu istehsal sahələri xüsusi tədqiq olunmamışdır.

Şərab, konyak və araq-spirt istehsalı ən çox Yelizavetpol və Bakı quberniyalarında geniş yayılmışdı. Bəhs edilən quberniyalarda şərab və araq istehsalı XIX əsrin son rübündən sənaye xarakteri almağa başlamışdı. İstehsal ildən-ilə artırdı. Məsələn, əgər 1871-ci ildə Bakı quberniyasında 15.5 min vedrə şərab əldə edilmişdirsə, bu rəqəm 1873-cü ildə 27 min vedrəni keçmişdi (2, s. 255). Quberniyalarda şərab və araq əsasən ən çox Şamaxı, Göyçay və qismən Bakı qəzalarında istehsal olunmuşdu. Göstərilən sahələrdə işləyən zavodların əksər hissəsini xırda müəssisələr təşkil edirdi. Buna baxmayaraq, iri zavodlar məhsul istehsalında əsas rol oynayırdı. Artım da elə bu kimi müəssisələrin hesabına baş verirdi. Məhsulu daşımaq və onu satışa çıxarmaq asan olan yaşayış məntəqələrində (bunlar nisbətən dəmiryola yaxın kəndlərdən ibarət idi) istehsal getdikcə artırdı. Kürdəmirdə hər il orta hesabla, 75-100 min vedrə şərab istehsal edilirdi. Əsrin sonuna yaxın spirtli içkilərin istehsalı xeyli artmışdı. 1893-cü ildə Kürdəmirdəki şərab zavodları 140 min vedrə şərab vermişdilər (3, s. 259). Bütövlükdə Bakı quberniyası üzrə şərab istehsalı getdikcə çoxalırdı. Əgər 1889-cu ildə cəmi 217 min vedrədən bir qədər artıq şərab əldə edilmişdisə, bu,1892-ci ildə 340 min, əsrin sonuna yaxın isə 800 min vedrəyə qədər şərab istehsal olunmuşdu (4).

Yelizavetpol quberniyasında bəhs olunan dövrdə vəziyyət bir qədər fərqli idi. Burada aparıcı rol Şuşa və Yelizavetpol qəzalarına məxsus olmuşdu. Hər iki qəzada şərab istehsalı Tiflis–Bakı dəmiryolu çəkildikdən sonra xeyli genişlənmişdi. 1887-ci ildə quberniya üzrə 400 min vedrə şərab istehsal edilmişdisə, bu, 1893-cü ildə iki dəfədən çox artaraq 965 min vedrəyə bərabər olmuş, bir neçə il sonra isə 1112 min vedrəni keçmişdi (3). Dəmir yollar – çəkilənədək şərabın Rusiyaya ixracı əsasən Xəzər dənizi, yəni su yolu ilə Həştərxana, oradan da mərkəzi şəhərlərə aparılırdı.

Yuxarıda haqqında danışılan qəzalarda əsrin sonuna yaxın artım xeyli çox olmuşdu. Bakı quberniyasında Göyçay qəzası Şamaxı qəzasına

nisbətən daha çox şərab verirdi. Qəzanın dəmir yol yaxınlığında yerləşən Kürdəmir kəndində, yuxarıda deyildiyi kimi, şərab zavodlarının sayı ildən-ilə artırdı. Təkcə 1893-cü ildə Kürdəmirdə 140 min vedrədən çox keyfiyyətli şərab əldə edilmişdi (4, s. 58).

XİX əsrin 90-cı illərinin birinci yarısınadək Yelizavetpol quberniyasında Yelizavetpol (Gəncə) şəhəri və eyni adlı qəza Şuşa qəzası ilə müqayisədə daha çox şərab verirdilər. Həm də şərabın böyük bir hissəsi iri sənayeçilərin əllərində cəmləşmişdi. 1892-ci ildə şəhərdəki müəssisələr 260 min vedrə şərab vermişdilərsə, əsrin sonunda bu, 4 dəfədən çox azalmışdı. Şuşa qəzasında isə həmin illərdə istehsal təxminən 1.5 dəfə artmışdı. Yelizavetpol qəzasında alman kolonistlərindən Forer qardaşları firması spirtli içkilər istehsalında xüsusilə fərqlənirdi. XIX əsrin 90-cı illərində firma hər il orta hesabla 60 min vedrədən çox şərab istehsal edirdi (5, s. 144).

Yelenendorfda Forer qardaşları firmasından başqa, daha bir firma – Qummel qardaşları şirkəti də spirtli içkilər istehsalı ilə məşğul olurdu. 90-cı illərdə bu şirkət ildə 20-30 min vedrədən çox şərab istehsal edirdi (5, s. 66). Şirkətin Kürdəmir və başqa yerlərdə də müəssisələri vardı.

Əlbəttə, Azərbaycanın başqa yerlərində də şərab istehsalı ilə məşğul olurdular. Amma kiçik həcmli bir məqalədə bunları da əhatə etmək mümkün deyildir. Ölkəmizdə istehsal olunan şəraba tələbat çox idi. Rusiya və başqa ölkələrə hər il təxminən 0.5 milyon vedrəyədək şərab satılırdı (3, s. 340).

XX əsrin əvvəllərində şərab istehsalındakı xeyli dəyişiklik nəzər – diqqəti cəlb edirdi. Əsrin sonuna dair statistik materialların verdiyi məlumat 1913-cü ildə çox artmışdı. 1900-cü ildə Azərbaycan üzrə 1.4 milyon vedrə şərab alınmışdısa, bu rəqəm 1910-cu ildə 3 milyona, nəhayət, 1913-cü ildə 4 milyon vedrədən çox olmuşdu (6, s. 53-54). İri şərab zavodları Şuşa qəzasında(əsasən Agdamda), Yelizavetpol qəzası və Gəncə şəhərində, Yelenendorfda, Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarında (xüsusilə Kürdəmir, Ucar, Bərgüşad və digər kəndlərdə), həmçinin Bakı şəhərində yerləşirdi. Spirtli içkilər istehsalı başlıca olaraq iri şirkətlər və səhmdar cəmiyyətlərinin inhisarında idi. İri şərab zavodları Forer və Qummel qardaşları, Sesiyev, Xublarov, Soqomonov qardaşları, Ağrıyev, həmçinin Şustov şirkətlərinin əllərində cəmlənmişdi.

Təkcə onu demək kifayətdir ki, 1913-cü ildə spirtli içkilər istehsalı sahəsində əsas kapitalı 13 milyon manatdan çox olan 5 iri şirkət və səhmdar cəmiyyəti fəaliyyət göstərirdi (6, s. 198-200).

Azərbaycanda konyak istehsalının tarixi XIX əsrin 80-90-cı illərindən başlayır. Konyak spirti yüksək keyfiyyətli şərabdan çəkilirdi. 1882-ci ildə Forer qardaşları Yelenendorfda kiçik bir konyak zavodu inşa etdirdilər. Zavodun istehsal gücü böyük deyildi. Ona görə müəssisə xeyli müddət məhsul istehsal edə bilmədi və texniki təchizat da buna imkan vermirdi. Yalnız 90-cı illərdən etibarən konyak istehsalına başlanmışdı. 1892-ci ildə cəmi min vedrə, 1895-ci ildə 2 min vedrə və nəhayət, 1899-cu ildə isə 24 min vedrə konyak əldə edilmişdi. Konyak 1897-ci ildə Londonda keçirilən beynəlxalq sərgidə qızıl medala layiq görülmüşdü (5, s. 270).

Konyak istehsalında Ağdamda yerləşən müəssisələr xüsusilə fərqlənirdilər. 1886-cı ildə Soqomonov qardaşları Ağdamın Muradbəyli kəndində kiçik bir konyak zavodu inşa etdilər. Lakin sahibkarların ümidləri doğrulmadı və 1890-cı ildə texniki avadanlığı Varşavadan gətirilmiş iri

zavod işə saldılar. Zavodda hər il 40 min vedrədən çox yüксəк кeyfiyyətli şərab кonyaк spirti istehsal olunurdu. Sonraкı illərdə müəssisələr öz istehsal gücünü xeyli artırmışdı (7, s. 149). Az sonra Ağdamda Xublarov qardaşlarına məxsus кonyaк zavodu işə salındı. Zavodun texniкi avadanlığı Fransadan gətirilmişdi. Sahibкarların başqa yerlərdə də кonyaк zavodları yerləşirdi (7).

Baкı quberniyası ərazisində ilк кonyaк zavodu Kürdəmirdə Ağrıyev qardaşları şirкəti tərəfindən inşa etdirilmişdi. Zavodda XİX əsrin sonunda istehsal olunan кonyaк Rusiyanın iri şəhərlərinə satılır, həm də “rus кonyaкı” adı altında (4, s. 149).

Yelenendorfda Qummel qardaşları firması 1895-ci ildə кonyaк zavodunun inşasını başa çatdırdılar. Onların Bərgüşadda da belə bir zavodu vardı (3, s. 393).1899-cu ildə Şustov firması Azərbaycanda bir sıra yerlərdə, o cümlədən Kürdəmir və Yelenendorfda spirtli içкilər – кonyaк istehsal edən müəssisələrə maliк idi (7, s. 152).

XX əsrin əvvəllərində həm müəssisələrin sayı və həm də məhsul istehsalı nəzərə çarpacaq dərəcədə artmışdı. Dünya iqtisadi böhranının (1900-1903) son ilindən başlayaraq кonyaк zavodlarının sayı xeyli çoxalmışdı. 1903-cü ildə Yelizavetpol quberniyasındaкı кonyaк zavodlarına daha iкisi əlavə olunmuşdu. 1909-cu ildə Forer qardaşlarına məxsus кonyaк zavodunda yenidənqurma işləri həyata кeçirildiкdən sonra кonyaк istehsalı artmışdı. 1910-cu ildə zavod 10 min vedrə, sonraкı ildə isə 20 min vedrə кonyaк vermişdi (8, s. 174).

Baкı quberniyasında 1902-ci ildə кapitalist S. Saracova məxsus iкi кonyaк zavodu istismara verildi. Hər iкi zavod Bərgüşadda inşa olunmuşdu. Ağrıyev qardaşları şirкəti isə 1904-cü ildə Kürdəmirdə tiкdirdiyi 2 кonyaк zavodunu işə saldı (9, s. 171). Konyaк zavodları Yelizavetpol quberniyasında sayca çox idi. 1900-cü ildə quberniya ərazisində 3 кonyaк zavodu vardısa, 1914-cü ildə onların sayı 6-ya çatmışdı. Baкı quberniyasında artım çox cüzi idi, cəmi 3 zavod fəaliyyət göstərirdi. Buna baxmayaraq кonyaк istehsalı кifayət qədər artmışdı. 1902-ci ildə bütün zavodlarda 72 min dərəcə кonyaк spirti əldə edilmişdisə, bu, 1913-cü ildə 2.3 milyon dərəcəyə bərabər olmuşdu(20).

Azərbaycanda istehsal olunan кonyaк yüксəк кeyfiyyətdə olduğuna görə baha satılırdı. Cənubi Qafqazdaкı кonyaк müəssisələrinin üçdə birindən çoxu ölкəmizdə yerləşirdi. Dünya müharibəsi ərəfəsində Cənubi Qafqazda əldə edilən кonyaкın 40%-dən çoxu Azərbaycanın кonyaк müəssisələrinin payına düşürdü. Əldə olunan кonyaкın bir hissəsi yerlərdə istifadə olunur, qalanı isə Rusiyanın 30-dan çox şəhərinə ixrac edilirdi (9, s. 218). Onu da qeyd etməк gərəкdir кi, Rusiya imperiyasındaкı 49 кonyaк zavodunun təxminən yarısı Cənubi Qafqazda yerləşirdi. Məhsulun da, deməк olar кi, yarısı burada istehsal olunurdu.

Azərbaycanda şərab, кonyaк istehsalı ilə yanaşı, spirt və araq da çəкilirdi. 1873-cü ildə arağa qoyulan aкsiz vergisi bu sahədə xeyli geriləməyə səbəb oldu və bağ sahiblərinin çoxsaylı araq çəкən xırda müəssisələri işləri dayandırmağa məcbur oldu (10, s. 152). Aкsiz vergisinin vaxtaşırı artırılması araq və spirtin çəкilməsinə mənfi təsir göstərirdi. Amma bu məhsullara tələbat böyüк idi. Çünкi milyonlarla vedrə şəraba spirt vurulmadan кeçinməк qeyri-mümкün idi. 1884-cü ilin iyununda aкsiz vergisi yenidən artırıldı. Hər dərəcəyə əvvəllərdə alınan 1 qəpiк əvəzinə indi sahibкarlar 3 qəpiк ödəməli olurdu (3, s. 343). Bu, istehsa-

la dərhal mənfi təsir göstərdi. Cənubi Qafqazda tut arağının 95%-dən çoxunu Yelizavetpol quberniyası, xüsusilə də Şuşa qəzasındakı müəssisələr verirdi. Əgər aksiz vergisi artırılanadək 5 milyon dərəcədən çox tut arağı çəkilmişdisə, qanun veriləndən sonra araq istehsalı azalaraq 1885-ci ildə 1.4 milyon dərəcəyə düşmüşdü (10, s. 158). Tələbatın artması istər-istəməz istehsala müsbət təsir göstərirdi. 1886-1894-cü illərdə Yelizavetpol quberniyasında orta hesabla hər il 11 milyon dərəcədən çox spirt alınmışdı. Bakı quberniyasında isə bundan 6-7 dəfə az spirt istehsal edilmişdi (1, s. 266-267).

Araq və spirt çəkilən iri zavodlar Bakı, Gəncə şəhərlərində, Ağdamda, Kürdəmirdə, Ucarda və bir çox yaşayış məntəqələrində yerləşirdi. Əsası 1884-cü ildə qoyulmuş N.Terentyevin Bakıdakı zavodu 1890-cı ildə taxıldan 40 min vedrə araq çəkmişdi. Təxminən 5 il sonra həmin zavod 3 milyon dərəcə təmiz spirt istehsal etmişdi (3, s. 357).

XX əsrin əvvəllərində araq və spirt istehsalının miqyası xeyli genişlənmişdi. Yelizavetpol quberniyası spirtin bütün növlərinin istehsalında Bakı quberniyasından əsaslı şəkildə fərqlənirdi. Yalnız təmizlənmiş spirt alınmasında Bakı quberniyasından geri qalırdı. Təmizlənmiş (rektifikasiya) spirt istehsalı zavodları başlıca olaraq Ağdamda, Gəncədə və Yelenendorfda yerləşirdi. XX əsrin əvvəllərində onların sayı 3-4-dən çox deyildi. Ağdamın Muradbəyli kəndindəki zavodlar mükəmməl texnika ilə təchiz edilmişdi və ona görə də alınan spirt yüksək keyfiyyətdə olurdu. 1913-cü ildə quberniyada 1901-ci ilə nisbətən 3 dəfədən çox təmizlənmiş spirt alınmışdı. Müvafiq illərdə 5.5 milyon dərəcə və 1.9 milyon dərəcə təmizlənmiş spirt istehsal olunmuşdu (6, s. 169). 1913-cü ildə hər müəssisə təxminən 1.4 milyon dərəcə spirt vermişdi. 1910-cu ildə Yelizavetpol quberniyasında çəkilmiş spirtin 45%-i (2198 min dərəcə) Forer qardaşlarına məxsus zavodların payına düşürdü (11, s. 201). Təmizlənmiş spirtin qalanını isə Ağdamdakı zavodlar vermişdi. Eyni nisbət sonrakı illərdə də davam etmişdi. Məsələn, 1913-cü ildə quberniya üzrə əldə edilmiş 5464 min dərəcə əla növ spirtin 3119 min dərəcəsini (57%-dən çoxunu) Ağdamdakı şirkətlər, 1922 min dərəcəsini (35, 2%-n) Forer qardaşları şirkəti və təxminən 425 min dərəcəsini isə "Nadejda" kənd təsərrüfatı şirkəti istehsal etmişdi (11, s. 293). Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Yelizavetpol quberniyasındakı rektifikasiya zavodları 1913-cü ildə Cənubi Qafqazda əldə edilmiş bu növ spirtin beşdə birindən çoxunu (21.2%-ni) vermişdi.

Bakı quberniyasında rektifikasiya zavodlarının sayca az olmasına baxmayaraq, onların istehsal gücü Yelizavetpol quberniyasındakı eyni zavodların gücündən xeyli çox idi. Quberniya üzrə belə zavodlar sayca çox deyildi(2-3). Əsrin əvvəllərində 1 zavod Ucarda və digər zavod isə Bakıda fəaliyyət göstərirdi. 1903-cü ildə Kürdəmirdə Ağrıyev qardaşları şirkətinin isə işə saldıqları zavod üçüncü müəssisə hesab edilməlidir. Ucardakı zavod Sesiyev qardaşları şirkətinə, Bakıdakı isə N.Terentyevə məxsus idi (11, s. 96). Ümumiyyətlə, Bakı quberniyasındakı rektifikasiya zavodları 1903-cü ildə 5,7 milyon dərəcə təmizlənmiş spirt istehsal etmişdilərsə, bu, 1913-cü ildə 8 milyon dərəcəni keçmişdi. Təmizlənmiş spirt istehsalında qəzalardakı müəssisələr fərqlənirdilər. Əgər əsrin əvvəllərində həmin müəssisələr spirtin yarısından bir qədər çoxunu verirdilərsə, 1913-cü ildə bu vəziyyət onların xeyrinə xeyli dəyişmişdi. Cənubi Qafqazda əldə edilən təmizlənmiş spirtin 52,5%-i Bakı quberniya-

sındakı rektifikasiya zavodlarının payına düşürdü. Bu sahədə Azərbaycanın rektifikasiya müəssisələri aparıcı rola malik idilər (11, s. 223). Zavodların 50%-i də Azərbaycanda yerləşirdi.

Azərbaycanda əldə edilən bu növ spirt milyonlarla litr şəraba vurulurdu. Təkcə onu demək kifayətdir ki, 1913-cü ildə Yelizavetpol quberniyasında şəraba 5268 min dərəcə, Bakı quberniyasında isə 9445 min dərəcə spirt vurulmuşdu (11, s. 229). Maraqlı cəhət orasıdır ki, Azərbaycandan Rusiyanın 20 şəhərinə şəraba vurulmaq üçün spirt göndərilməsinə baxmayaraq ondan aksiz vergisi tutulmurdu. Məqsəd Rusiyanın şərab zavodlarını daha çox təmizlənmiş spirtlə təchiz etməkdən ibarət idi.

Azərbaycanda eyni müəssisədə həm təmizlənmiş spirt, həm də araq çəkilirdi. Ayrıca araq çəkməklə məşğul olan zavodlar sayca çox idilər. Onların böyük əksəriyyətini xırda müəssisələr kateqoriyasına aid etmək olar. 1913-cü ildə Yelizavetpol quberniyasında belə "zavodların" sayı 245-dən çox idi. 1901-ci ildə hər zavodda 8.4 min dərəcə üzüm arağı çəkilmişdisə, 1913-cü ildə bu rəqəm 16.3 min dərəcəni keçmişdi

Bakı quberniyasında da vəziyyət demək olar ki, eyni idi. Buradakı müəssisələrin 1901-ci ildə hər birində 7,5 min dərəcə üzüm arağı alınmışdısa, bu, 1913-cü ildə12 min dərəcəyə bərabər olmuşdu.

Yelizavetpol quberniyasında tutdan araq çəkilməsi geniş intişar tapmışdı. Cənubi Qafqazda tutdan çəkilən arağın 95%-ə qədərini Azərbaycan, məhz həmin quberniya verirdi. Naxçıvan və Zaqatalada da az miqdarda belə araq əldə edilirdi. Tut arağının təxminən 85%-i Şuşa qəzasında istehsal olunurdu. İstehsal gücünə görə müəssisələr kiçik idilər. Əlbəttə, iri zavodlar da fəaliyyət göstərirdilər. Əğər Azərbaycan üzrə 1901-ci ildə 2.7 milyon dərəcədən bir az çox tut arağı əldə edilmişdisə, bu, 1909-cu ildə 6.5 milyon dərəcə və 1913-cü ildə isə azalaraq 3.4 milyon dərəcəyə enmişdi (6, s. 185).

Azərbaycanda giləmeyvədən də araq əldə edilirdi. Rektifikasiya spirti ən yaxşı üzüm materialından alınırdı. İstehsal prosesində ikinci və üçüncü növ material alınırdı ki, bundan da içməyə yararlı olmayan denaturatlaşmış spirt hazırlanırdı. Belə spirtdən işıqlandırmada və xüsusi hazırlanan bu növ spirtdən tibbdə də istifadə olunurdu.

Bəhs olunan dövrdə – 1901-ci ildə Azərbaycanda 16,4 milyon dərəcə spirt və araq istehsal edilmişdisə, 1908-ci ildə bu, 19,3 milyon dərəcəyə və 1913-cü ildə isə 29 milyon dərəcəyə bərabər olmuşdu.

XX əsrin əvvəllərində yeyinti sənayesinin haqqında danışılan sahələrində kifayət qədər ticarət evləri, pay şirkətləri və səhmdar cəmiyyətləri mövcud idi. Bunların bəzilərinin XIX əsrin sonunda təsis edilmələrinə baxmayaraq, onların coşğun fəaliyyəti XX əsrin əvvəllərinə təsadüf edir. Məhsulun əsas hissəsini həmin şirkətlərə məxsus müəssisələr verirdilər.

Azərbaycanda istehsal olunan spirtli içkilər yüksək qiymətə gedirdi. Şərabın vedrəsi orta hesabla 1 manat 80 qəpiyə satılırdı. Əgər 1901-ci ildə şərabın ümumi dəyəri 4 milyon manata yaxın olmuşdusa, bu rəqəm 1913-cü ildə 7.3 milyon manatdan yuxarı idi. Müvafiq illərədə əldə edilmiş spirt-araq-konyakın ümumi dəyəri isə 6.2 milyon və 11.8 milyon manata bərabər idi. Giləmeyvə və digər məhsullardan alınan spirtin dəyərini nəzərə alsaq, onda yuxarıdakı rəqəm 12 milyon manatdan çox olar. Başqa sözlə desək, haqqında bəhs olunan sahələrdə istehsal olunmuş məhsulun ümumi dəyəri 22 milyon manatdan çox olmuşdur (6).

**QEYDLƏR**

1. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: 1958; yenə onun. Промышленность Азербайджана в XIX в. Баку: 1964; Azrbaycan tarixи, 2-ci cild, Bakı: 1964; Умаев А.А. Возникновение и деятельность винодельческих фирм в дореволюционном Азербайджане. Azərbaycan SSR arxivlərinin xəbərləri, 1965, № 3; М.А.Исмаилов. Промышленность Баку в начале XX в. Баку: 1976; yenя onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Bakı: 1982; Vəliyev T.T. Azərbaycanın sənayesi və proletariatı. Bakı: 1987 və başqaları.
2. Сумбатзаде А.С. Сельское хозяйство…
3. Сумбатзаде А.С. Промышленность…, səh.330; Кондуралов П.К. Очерк виноградарства и виноделия в Шемахинском и Геокчайском уездах Бакинской губернии. – сб. сведений по виноградарству и виноделия на Кавказе, В бур., Тифлис: 1896.
4. Кондуралов Р.К. Göst. əsər.
5. Краткий очерк экономии бр. Форер в Елизаветпольской губернии Елизаветпольского уезда 1860-1901 гг. Тифлис: 1901, səh. 6; Umayev Ə.A. Göst.əsər.
6. Краткий очерк экономии…
7. Vəliyev T.T. Göst.əsər, səh. 167; Г.Г.Гасанов из истории североазербайджанский деревни в конце XIX – нач. XX вв. Баку: 2007.
8. Краткий очерк экономии…
9. Кондуралов Р.К. Göst. əsər, səh. 12; Ə.A.Umayev. Göst. əsər.
10. Свешников М.Н. Винодельческое хозяйство бр. Форер. Тифлис: 1911, səh. 15-16; T.T.Vəliyev. Göst. əsər.
11. Обзор отраслей промышленности, служащих косвенного обложения и положения акзисного дела в Закавказском крае за 1904 г.
12. Гулишамбаров С.Н. Обзор фабрик и заводов Закавказского края. Тифлис: 1894.
13. Обзор отраслей промышленности…, за 1910 г.
14. Yenə orada, 1903-cü il, səh. 171; Исмаилов М.А. Промышленность Баку в начале XX в., Баку: 1976.
15. Обзор отраслей промышленности , 1913-cü il, səh. 223.

## О ПРОИЗВОДСТВЕ ВИНА, КОНЬЯКА И СПИРТО-ВОДКИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ.

Х.Т.ВЕЛИЕВА

### РЕЗЮМЕ

Статья посвящена слабо изученному вопросу. Для разработки указанных отраслей пищевой промышленности Азербайджана автор подобрала богатый материал из первоисточников и литературы. Автор на основе этих материалов доказала, что эти отрасли промышленности, в изучаемом периоде, находились на высшем этапе капиталистического развития.

## ON THE MANUFACTURE OF WINE, BRNDY AND ALCOHOLIC DRINKS IN THE END XIX – TO THE BEGINNING OF XX CENTURIES

X.T.VALIYEVA

### SUMMARY

In the following article according to the primary sources and literature is made attempts to research such important question as, these branch of industry were in high position during the capitalist development.